**ISSN 2307-2504 Polis Akademiyasının Elmi Xəbərləri ELMİ HÜQUQ JURNALI № 4 (36), 2022, səh.47**

**UOT: 343.4**

**Ədliyyə Akademiyasının baş məsləhətçisi,**
**Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı**
**I dərəcəli ədliyyə qulluqçusu**
**Nuridə Əlizadə**
**alizadenuride91@gmail.com**
**055-772-70-81**

# Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrininin pozulmasına görə cinayət məsuliyyəti

**Açar sözlər:** yazışma sirri, poçt, teleqraf və digər məlumatlar, şəxsi və ailə həyatına hörmət hüququ, cinayət məsuliyyəti.
**Ключевые слова:** тайны переписки, почтовых, телеграфных или иных сообщений, право на уважение частной и семейной жизни, уголовная ответственность.
**Keywords:** privacy of correspondence, mail, telegraph and other information, the right to respect for private and family life, criminal liability.

Azərbaycan Respublikasının Konstitusiyasının "Şəxsi toxunulmazlıq hüququ" adlanan 32-ci maddəsinin IV bəndinə əsasən "hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər".

Şəxsi toxunulmazlıq hüququna aid olan bu təminat yalnız Konstitusiyada deyil, Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə də nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsinə əsasən yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma cinayət məsuliyyəti yaradır. Göstərilən cinayətin obyekti vətəndaşın yazışma, telefon danışıqları, poçt teleqraf və digər məlumatların sirrini pozmada ifadə olunur. Bu cinayət min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Əvvəla Cinayət Məcəlləsinin 155-ci maddəsində nəzərdə tutulan anlayışları izah etmək zəruridir. Yazışma dedikdə, şəxsin yazdığı məktub, sms, elektron poçt yazışmaları, vatsap yazışmaları, sosial şəbəkələrdə ismarıc bölməsi vasitəsilə yazışmaları və digər formada şəxsi yazışmaları nəzərdə tutulur. Lakin sosial şəbəkələrdə hər kəsin görə biləcəyi formada olan yazılar yazışma sirrinin əhatəsi dairəsinə daxil olmur. Hər hansı yazışma formasının təminat altına alıması üçün həmin yazışmanın gizlin formada olması və başqaları tərəfindən oxuna bilinməməsi əsas göstəricidir. Yazışma dedikdə əsasən iki şəxs arasında olan yazışma – məlumat mübadiləsi nəzərdə tutulsa da, şəxsin özünün yazaraq heç kimə göstərmədiyi hər hansı məktub və yazı da yazışma sirri ilə qorunur. Yəni, yazışma anlayışında heç də həmişə ikinci tərəfin olması vacib deyil. Həmçinin qrup şəklində də yazışma ola bilər, yəni ikidən çox şəxs arasında da mövcud ola bilər. Göstərilən bütün hallarda yazışmanın məzmununun heç bir əhəmiyyəti yoxdur, şəxsin yazısının gizli şəkildə olması istəyi kifayətdir.

Telefon danışıqları dedikdə mobil və şəhərlərarası telefon aparatı vasitəsilə aparılan telefon danışıqları nəzərdə tutulur. Bu telefon danışıqları ailə üzvləri və ya digər şəxslər arasında aparıla bilər.

Poçt, teleqraf vasitəsilə ötürülən məlumatlar dedikdə, poçt rabitəsi vasitəsilə ötürülən məlumatlar başa düşülür, yəni poçt göndərişlərinin qəbulunu, çeşidlənməsini, daşınmasını, ünvan sahibinə çatdırılmasını təmin edən obyektlərin və nəqliyyat vasitələrinin vahid texnoloji sistemi vasitəsilə. Poçt göndərişi - poçt rabitəsi operatoru tərəfindən müəyyən ünvana çatdırılmaq üçün qəbul edilmiş poçt kartları, məktublar, teleqramlar, pul baratları, banderollar, kiçik paketlər, sekoqramlar, xüsusi "M" kisələri, bağlamalardır [10, m. 1.0.8]. Poçt göndərişindəki bağlamada hansı əşyanın və ya hansı məzmunda məktubun olmasının heç bir əhəmiyyəti yoxdur. Poçt göndərişləri ilə verilən məlumatlar haqqında informasiyalar, habelə bu göndərişlər və məlumatlar yalnız onları göndərənlərə və ünvan sahiblərinə verilə bilər.

Digər məlumatlar dedikdə, faks, teletayp və digər telekommunikasiya vasitələri (poçt və teleqraf istisna olmaqla) və s. ilə ötürülən məlumatlar başa düşülür.

Pozma dedikdə, telefon danışıqlarına qulaq asma, elektrik rabitə məlumatları ilə tanış olma, poçt göndərişlərini və bağlamaları açma və götürmə, onlar haqqında məlumatları əldə etmə və yayma, habelə yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini hər hansı başqa şəkildə pozma başa düşülür [3, s. 359].

Xüsusi dövlət mühafizə xidmətinin əməkdaşı tərəfindən çatdırılan korrespondensiyalar və digər göndərişlər istisna olmaqla üzərinə həbs qoyula bilən poçt, teleqraf və digər göndərişlərə aşağıdakılar aiddir:

bütün növlərdən olan məktublar; teleqramlar; radioqramlar; banderollar; sovqatlar; poçt konteynerləri; pul baratları [4, m. 255].

Maddədə nəzərdə tutulan anlayışları açıqladıqdan sonra, məzmuna nəzər yetirmək lazımdır.

Sözügedən cinayətin obyekti Azərbaycan Respublikasının Konstitusiyasının 32-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş konstitusiya hüququnun həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir. Obyektiv cəhətdən yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozmada ifadə olunur.

Bu cinayət subyektiv cəhətdən birbaşa qəsdlə törədilir. Cinayətin motivi müxtəlif ola bilər və onlar cinayət tərkibinin zəruri əlaməti sayılmır. Bu cinayətin subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər. Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin pozulması vəzifəli şəxsin öz qulluq mövqeyindən sui-istifadə etməsi nəticəsində baş vermişdirsə, təqsirkarın əməli Cinayət Məcəlləsinin 155-ci və 308-ci maddələri ilə cinayətlərin məcmusu qaydasında tövsif olunacaqdır [3, s.359].

Qeyd edək ki, müasir dövrdə texniki avadanlıqların köməyilə aparılmış yazışmaları əldə etmək xüsusi xacker proqramlarının vasitəsilə daha rahat olmuşdur. Həmçinin mobil tətbiqlər vasitəsilə də danışıqlar aparılarkən xüsusi səsyazma proqramlarını işə salmaq mümkündür. Nəticədə səsi yazılmış şəxsin danışıqları və ya mobil tətbiqlər vasitəsilə başqasına göndərdiyi audio yazısı onun xəbəri olmadan yayıla bilər, bu halda qanunverciliyə uyğun olaraq müəyyən tədbirlər görüləcək. Çünki bu tamamilə hüquq pozuntusudur və Cinayət Məcəlləsinin 155-ci maddəsilə cinayət hesab olunur. Hal-hazırda şəxsi məlumatların hər hansı bir daşıyıcıda saxlanmasında da ehtiyatlı olmaq lazımdır. Lakin bu halların qarşısını almaq üçün əsas vasitə nəzərdə tutulmuş sanksiyanın artırılması ola bilər.

Bəzən insanlar hüquqi savadsızlıq ucbatından mobil telefon və s. vasitəsilə onun hüququnu pozduğunu iddia etdiyi şəxsin səs yazısını gizlicə yazaraq dəlil yığmaq qərarına gəlir. Həmin gizli yazılmış səs yazısını hüquq mühafizə orqanlarına təqdim edərək qarşı tərəfin cəzalanmasını tələb edir. Lakin qanunvericiliyə əsasən qanunu pozmaqla əldə olunmuş dəlillər sübut kimi istifadə oluna bilməz. Belə ki ali qanunvericilik aktı olan Azərbaycan Respublikasının Konstitusiyasının 63-cü maddəsinin 4-cü hissəsinə əsasən ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

Hansı hallarda qanun telefon danışıqlarının, yazışmaların, poçt, teleqraf və digər rabitə vasitələri ötürülən məlumatların istifadə olunmasına icazə verir? Hansı halda sözügedən hüquq məhdudlarşdırıla bilər? Belə hallara poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması, onların baxışı, götürülməsi və yoxlanılması, telefon danışıqlarına qulaq asılması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, məhkumların məktublarının

yoxlanılması kimi əməliyyat-axtarış və prosessual tədbirlər aiddir. Göstərilən hərəkətlər istintaq, təhqiqat və məhkəmə orqanlarının əsaslandırılmış qərarı əsasında aparılmalıdır. Belə qərar olmadan həmin hərəkətlərin həyata keçirilməsi yazışma, telefon danışıqları, poçt, teleqraf və məlumatların sirrini pozmuşdursa, şərh olunan cinayətin tərkibi yaranır. Bu cinayət təqsirkarın özünün və ya onun qəsdən edilmiş qanunsuz hərəkətləri nəticəsində digər şəxslərin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların məzmunu ilə tanış olduğu andan başa çatmış hesab olunur.

Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallarda, bir qayda olaraq, məhkəmənin qərarı ilə həyata keçirilə bilər.

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 442.2-ci maddəsinə əsasən, hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və başqa məlumatların saxlanılması hüququnu məhdudlaşdıran məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair məsələlərlə bağlı vəsatət və təqdimatlara məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə baxır.

Poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulması, telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi istintaq hərəkətləri hesab olunur və bu istintaq hərəkətlərinin məcburi aparılması üçün bir qayda olaraq məhkəmə qərarının alınması tələb olunur. Sözügedən istintaq hərəkətləri müvafiq məhkəmə qərarı olmadan müstəntiq tərəfindən o halda öz qərarı əsasında aparıla bilər ki, şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə olan ağır və ya xüsusilə ağır cinayətlər üzrə sübutların müəyyən edilməsi üçün təxirə salına bilməyən hallar yaranmış olsun.

Bəs poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması qaydası necə tənzimlənir? Cinayət Prosessual Məcəlləsiin 257-ci maddəsinə əsasən əvvəla müstəntiq poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması haqqında qərarı müvafiq rabitə idarəsinin rəisinə göndərir. Rabitə idarəsinin rəisi bu barədə müstəntiqə dərhal məlumat verməklə müvafiq qərarda göstərilən poçt, teleqraf və digər göndərişləri saxlayır. Poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması ilə əlaqədar müstəntiq müvafiq qərarda göstərilən poçt, teleqraf və digər göndərişin saxlanması barədə rabitə idarəsinin rəisindən məlumat aldıqda, rabitə idarəsinə gəlir və həmin idarənin işçilərinin iştirakı ilə müvafiq göndərişə baxış keçirir, poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması barədə qərar əsasında rabitə idarəsinin rəisini həmin qərarın götürülməyə dair hissəsi ilə imza etdirməklə tanış edir və müvafiq göndərişi götürür.

Əgər müstəntiq poçt, teleqraf və digər göndərişdə iş üçün əhəmiyyətli ola biləcək sənəd və əşyaları aşkar edibsə müvafiq göndərişi götürə və ya onların surətini çıxarmaqla kifayətlənə bilər. İş üçün əhəmiyyətli ola biləcək məlumatlar olmadıqda isə müstəntiq baxılmış göndərişin ünvanı üzrə verilməsi və ya onun müəyyən etdiyi müddətədək saxlanılması barədə göstəriş verir.

Müstəntiq poçt, teleqraf və digər göndəriş üzərinə həbs qoyulması, onun baxışı və götürülməsi zamanı foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edə bilər.

Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki, vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi də eyni qaydada məhkəmənin qərarı əsasında həyata keçirilir. Şübhəli və ya təqsirləndirilən şəxslə digər şəxslər arasında ötürülən məlumatlarda cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik olan məlumatların olmasını güman etməyə kifayət qədər əsaslar olduqda müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı üzrə, məhkəmə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatın ələ keçirilməsi haqqında qərar çıxarır.

Səlahiyyətli şəxslər tərəfindən ələ keçirilən telefon və digər qurğularla aparılan danışıqlar, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatlar və ya başqa məlumatlar kağız, yaxud maqnit daşıyıcılarda əks etdirilir, onları ələ keçirmiş şəxsin imzası ilə təsdiq olunur və müstəntiqə verilir. Bu barədə qısa məzmunlu protokol tərtib olunur və cinayət işinin materiallarına əlavə edilir. İşə aid olmayan əldə edilmiş məlumatlar isə dərhal ləğv olunur.

Sözügedən istintaq hərəkətləri altı aydan artıq davam edə bilməz.

Şəxsi yazışma məlumatları, həmçinin şəxsi xarakterli məlumat daşıyan səs və video yazıları yalnız onların ünvanlandığı şəxslərin razılığı ilə açıq məhkəmə iclasında açıqlana bilər. Əgər belə razılıq olmazsa həmin sübutların elan və tədqiq edildiyi məhkəmə iclasları qapalı keçirilir.

Elektron və digər daşıyıcılar üzərində səs yazılarını təqdim edən və ya onların tələb olunması barədə vəsatət qaldıran şəxslər həmin yazıların nə vaxt, kim tərəfindən və hansı şəraitdə yazılmasını göstərməyə borcludur. Qanunla icazə verilən hallar istisna olmaqla, gizli yolla əldə edilmiş səs yazılardan sübut kimi istifadə oluna bilməz [5, m. 95.1].

Əməliyyat-axtarış fəaliyyəti haqqında qanuna əsasən poçt göndərişlərinin, teleqraf və digər məlumatların yoxlanılması, mülkiyyət formasından asılı olmayaraq rabitə xidmətləri göstərən, rabitə vasitələri təqdim edən idarə, müəssisə və təşkilatların, fiziki və hüquqi şəxslərin stansiya avadanlığına qoşulmaqla telefon danışıqlarının qulaqasması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması ilə bağlı əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı tərəfindən tətbiq edilir. Maddədə qeyd olunan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Ədliyyə Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti və Dövlət Gömrük Komitəsi həyata keçirir.

Telefon danışıqlarına qulaqasma; poçt, teleqraf və digər göndərişlərin yoxlanılması; texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması; və məhkumların məktublarının yoxlanılması; əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən tətbiq olunan tədbirlərə aiddir.

Qeyd etdiyimiz ilk üç əməliyyat-axtarış tədbiri məhkəmənin qərarı əsasında həyata keçirilməlidir. Lakin qanunda nəzərdə tutulmuş istisna hallar mövcuddur. Belə ki, şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövlət cinayətlərinin qarşısının alınması üçün əməliyyat-axtarış fəaliyyətinin subyektləri hakimin qərarı olmadan telefon danışıqlarına qulaq asa, poçt, teleqraf və digər göndərişlərini yoxlaya, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxara bilərlər [8, m.10].

Həmçinin hansısa bir şəxsə qarşı zor işlədilməsi, hədə-qorxu ilə tələb etmə və ya hüquqazidd digər hərəkətlər tətbiq edilmək təhlükəsi varsa həmin şəxsin ərizəsi əsasında əməliyyat-axtarış fəaliyyətinin subyekti onun telefonu və ya digər danışıq cihazları ilə aparılan danışıqlarına qulaq asa bilər.

Sözügedən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün qanunla müəyyən edilən səbəblər və əsaslar olmalıdır. Həmin səbəblərə aşağıdakılar aiddir:

1) fiziki şəxslərin ərizələri;

2) müəssisə, idarə, təşkilatların vəzifəli şəxslərinin müraciətləri;

3) kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlar;

4) əməliyyat-axtarış fəaliyyəti subyektlərinin bilavasitə əldə etdikləri məlumatlar;

5) əməliyyat-axtarış fəaliyyətinin digər subyektlərinin yazılı sorğuları;

6) Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti orqanlarını və xüsusi obyektlərini mühafizə edən orqanlarının yazılı sorğuları;

7) cinayət işləri üzrə təhqiqatı və ya istintaqı aparan şəxslərin yazılı tapşırıqları;

8) xarici dövlətlərin hüquq-mühafizə orqanlarının və ya müvafiq beynəlxalq təşkilatlarının rəsmi sorğuları.

9) kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin yazılı sorğuları.

əsaslara isə aiddir:

1) məhkəmənin (hakimin) qərarları;

2) istintaq orqanlarının qərarları;

3) əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarları [8,m.11]

Poçt göndərişlərindəki yazışmanın, poçt göndərişlərinə dair məlumatların məxfiliyi "Poçt haqqında" Qanunla da qorunur. Belə ki, poçt rabitəsi sahəsində işləyən şəxslər poçt göndərişlərindəki yazışmanın və poçt göndərişlərinə dair məlumatların məxfiliyini qorumalıdır [10, m. 20].

Yazışma sirri həmçinin İnsan hüquqları haqqında Avropa Konvensiyası ilə mühafizə altına alınır. Belə ki, Konvensiyasının Şəxsi və ailə həyatına hörmət hüququ adlanan 8-ci maddəsində şəxsi həyat anlayışına yazışma sirri də daxil edilir. Qeyd olunur ki, "Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir". Yazışma hüququnun həyata keçirilməsinə mane olmağa yol verilmir, lakin maddənin 2-ci hissəsində yazışma sirrinin məhdudlaşdırılmasında aşağıdakı istisna hallar öz əksini tapır:

1) milli təhlükəsizlik və ictimai asayiş,
2) ölkənin iqtisadi rifah maraqları naminə,
3) iğtişaşın və ya cinayətin qarşısını almaq üçün
4) sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya
5) digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün
6) qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan digər hallar.

Avropa Məhkəməsinin praktikasına da bir qədər müraciət etmək lazımdır. A Fransaya qarşı işdə (23 noyabr 1993) qeyd olunur ki, "Telefon danışıqlarının məzmunundan asılı olamayaraq şəxsin telefon danışıqlarının dinlənilməsi 8-ci maddənin təsir dairəsinə düşür".

Helford Birləşmiş Krallığa qarşı işdə (25 İyun 1997) qeyd olunur ki,"Danışıqların məzmunun ictimai xarakter daşıması, onların şəxsi xarakter daşıması faktını dəyişmir"

Bu maddədə nəzərdə tutulmuş yazışmaların konfidensiallığı şəxsi xarakterli və peşə fəaliyyəti ilə əlaqədar olan məktubları (məktubu göndərərnin və alanın məhbus olduğu hallar da aiddir), gömrük əməkdaşları tərəfindən müsadirə edilən bağlamaları, ailə üzvləri və digər şəxslər arasında olan telefon danışıqlarını, şəxsi evlərdən, müəssisələrdən, həmçinin həbsxanalardan edilən telefon zənglərini, habelə bu cür telefon danışıqları ilə bağlı məlumatların ələ keçirilməsi hallarını əhatə edir. Həmçinin elektron ismarıclar, internetdən istifadə və kompüter serverlərində, o cümlədən kompüterlərin sərt disklərində və daşına bilən disklərdə qorunan məlumatlar 8-ci maddənin tətbiq dairəsinə düşür. Lakin ictimai dalğalarda yayımlanan və beləliklə digər auditoriyalar üçün də əlçatan olan yayımlar buraya daxil deyil.

Yazışmanın məzmunu və forması heç bir əhəmiyyət daşımır, sadəcə məktubun açılması faktı müdaxilənin baş vermiş sayılması üçün kifayətdir.

Aşağıdakı halları da yazışma hüququna müdaxilə kimi qiymətləndirmək olar:

- şəxsin elektron yazışmalarının üçüncü şəxsə göndərilməsi
- elektron faylların surətlərinin götürülməsi
- bank məlumatlarının yer aldığı sənədlərin surətlərinin dövlət orqanları tərəfindən çıxarılması və saxlanılması
- gizli müşahidə tədbirləri.

Yazışmaların toxunulmazlığına hörmət hüququ ilə bağlı Avropa Məhkəməsi müəyyən pozitiv öhdəliklər müəyyən edib:

- şəxsi söhbətlərin ictimaiyyətə açıqlanmasının qarşısını almaq
- məhkəmə ilə yazışmaları üçün məhbusları zəruri materiallarla təmin etmək
- vəkil ilə müştari arasında olan telefon danışıqlarının audiokasetlərinin məhv edilməsi
- yazışma hüququ ilə ifadə azadlığı arasında ədalətli balansa riayət etmək.

Yazışmaların toxunulmazlığına hörmət hüququ şəxsi və ailə həyatını, həm də peşə həyatını əhatə edir. Marqareta və Rocer Andersson Osveçə qarşı məhkəmə işində Məhkəmə ana ilə sosial xidmətlərin himasində olan övladı arasında məktub və telefonla əlaqə saxlanılmasına məhdudiyyət qoyulması ilə əlaqədar olaraq pozuntu aşkar etdi [7, s.159].

Gizli müşahidə ilə bağlı ilk iş olan Klass və başqaları Almaniyaya qarşı məhkəmə işi üzrə qərarında Məhkəmə bildirdi: "bu gün demokratik cəmiyyətlər casusluğun və terorizmin yüksək dərəcədə təkmilləşmiş formalarının yaratdığı təhlükə ilə üzləşirlər, nəticədə dövlət bu təhlükələrlə

səmərəli mübarizə aparmaq üçün yurisdiksiyası daxilində fəaliyyət göstərən təxribatçı elementlərin gizli müşahidəsini həyata keçirə bilməlidir. Buna görə də Məhkəmə qəbul edir ki, yazışmaların, poçt göndərişlərinin və telekommunikasiyaların izlənilməsi səlahiyyətlərini verən müəyyən qanunvericiliyin mövcudluğu müstəsna hallarda milli təhlükəsizlik maraqları və (və ya) iğtişaşın və ya cinayətin qarşısını almaq üçün demokratik cəmiyyətdə zəruridir" [9].

Yəni şəxsin gizli müşahidəsinə bu tədbir qanunla nəzərdə tutulmuş olduqda, 8-ci maddənin 2-ci bəndində qeyd edilən qanuni məqsədlərədən birini və ya bir neçəsinidaşıdıqda və həmin məqsədlərə nail olmaq üçün demokratik cəmiyyətdə zəruri olduqda haqq qazandırıla bilər.

Qeyd etdik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsinə əsasən, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma - min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Göstərilən maddənin sanksiyası bir neçə dəyişiklik nəticəsində artırılaraq bu həddə çatmışdır. Lakin hələ də sözügüdən maddənin pozulması hallarına çox rast gəlinir. Xüsusilə informasiya kommunikasiya texnologiyalarının bu qədər inkişaf etdiyi müasir dövrdə sözügedən hüququn mühafizəsi daha da çətinləşib. Bu cinayətin qarşının alınması üçün kütləvi informasiya vasitələrində, insanlar arasında təbliğat aparılmalı, mütəmadi olaraq bu mövzu işıqlandırılmalı və sadə vətəndaşların hüquqi maarifləndirilməsi həyata keçirilməlidir. Belə ki, Konstitusiyanın 72-ci maddəsinə əsasən qanunu bilməmək məsuliyyətdən azad etmir. Həmçinin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin pozulmasına görə nəzərdə tutulmuş sanksiyanın həddi artırılmalı, maddənin mətnində belə bir qayda nəzərdə tutulmalıdır ki, sözügedən hərəkətlər xüsusilə ağır nəticələrə səbəb olduqda azadlıqdan məhrumetmə ilə cəzalandırısın.

## Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrininin pozulmasına görə cinayət məsuliyyəti


### Annotasiya

Məqalədə yazışma sirinin toxunulmazlığının Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müdafiəsi geniş araşdırılmış, Cinayət Məcəlləsinin 155-ci maddəsində nəzərdə tutulan anlayışlar izah edilmiş, sözügedən hüququnun hansı hallarda məhdudlaşdırıla biləcəyi tədqiq olunmuş, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin pozulmasının qarşısının alınması üçün həll yolları təklif edilmişdir.


## Criminal liability for violation of confidentiality of correspondence, telephone conversations, mail, telegraph, and other information


### Annotation

In this article, the protection of the privacy of correspondence by the legislative acts of the Republic of Azerbaijan has been extensively studied, the concepts provided for in Article 155 of the Criminal Code have been explained, and the cases in which this right can be limited have been studied, in order to prevent the violation of the confidentiality of correspondence, telephone conversations, mail, telegraph, and other information solutions have been suggested.


## Уголовная ответственность за нарушение тайны переписки, телефонных переговоров, почтовых, телеграфных или иных сообщений

### Аннотация

В статье подробно исследован вопрос защиты неприкосновенности тайны переписки законодательными актами Азербайджанской Республики, дано объяснение понятиям, использованным в статьей 155 Уголовного Кодекса, исследованы случаи, когда возможно ограничение упомянутого права, предложены пути предотвращения нарушения тайны переписки, телефонных переговоров, почтовых, телеграфных и иных сведений.

## İstifadə edilmiş mənbələr:

1. Azərbaycan Respublikasının Konstitusiyası - http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi - http://e-qanun.az/framework/46947
3. Azırbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. "Digesta" nəşriyyatı, Bakı-2008. 1006 səh.
4. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi - http://e-qanun.az/framework/46950
5. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi - http://e-qanun.az/framework/46945
6. Avropa İnsan hüquqları Konvensiyası https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols
7. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi üzrə təlimat. Avropa Şurası, azərbaycan dilində nəşr, 2018. 212 səh.
8. Əməliyyat-axtarış fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu - http://www.e-qanun.az/framework/2938#_edn22
9. Klass and Others v. Germany (Klass və başqaları Almaniyaya qarşı), 6 sentyabr 1978-ci il, A seriyaları, № 28
10. Poçt haqqında Azərbaycan Respublikasının Qanunu - http://www.e-qanun.az/framework/5457